İPƏK YOLU, No.2, 2025, səh.125-131
https://doi.org/10.30546/SI.2025.2.5.246

# COŞ MALERMANIN "QƏFƏS" ROMANINDA APOKALİPTİK DÜNYANIN TƏZAHÜRÜ

**Pərvin Həsənova**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: prvinhsnova4@gmail.com

**Xülasə.** Məqalədə (post) apokalipsis anlayışı və onun ABŞ yazıçısı Coş Malermanın "Qəfəs" romanında inikası xüsusiyyətləri araşdırılır. Əsərdə bəşəriyyətin qavrayış və idrak məhdudiyyətləri fonunda sağ qalmaq üçün məcburi adaptasiya prosesi təsvir edilir. Göstərilir ki, apokaliptik mühit təkcə fiziki yox, həm də psixoloji və fəlsəfi sınaqlar meydanıdır. Belə ki, romanda, nihilizm (F. Nitşe), absurd (A. Kamyu) anlayışları əsərin əsas ideyası ilə əlaqələndirilir. Bu fəlsəfi yanaşmalar, C. Malermanın apokaliptik dünyasını daha dərindən anlamağa kömək edir və romanı janrın təkamülü baxımından yeni bir mərhələyə çıxarır.

**Açar sözlər:** Apokalipsis, ekzistensializm, absurd, qorxu, F. Nitsşe, A.Kamyu.

**THE REPRESENTATION OF THE POST-APOCALYPTIC WORLD IN JOSH MALERMAN'S NOVEL "BIRD BOX"**

**Parvin Hasanova**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article deals with the concept of apocalypse and its reflection in the novel of the American writer Josh Malerman "Bird Box". The product describes the process of forced adaptation for survival against the background of limitations of human perception and cognition. The author shows that the apocalyptic environment is not only a place of physical, but also psychological and philosophical tests. Thus, in the novel, the concepts of nihilism (F. Nietzsche) and absurdity (A. Camus) are connected with the main idea of the work. These philosophical approaches help to better understand the apocalyptic world J. Malerman and the novel are brought to a new stage in the evolution of the genre.
**Keywords:** Post-apocalypse, existentialism, absurdity, fear, F. Nitzsche, A. Camus.

**ПРОЯВЛЕНИЕ ПОСТАПОКАЛИПТИЧЕСКОГО МИРА В РОМАНЕ ДЖОША МАЛЕРМАНА "ПТИЧИЙ КОРОБ"**

**Парвин Гасанова**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается концепция апокалипсиса и ее отражение в романе американского писателя Джоша Малермана "Птичий короб". В произведении описывается процесс вынужденной адаптации для выживания на фоне ограничений человеческого восприятия и познания. Автор показывает, что апокалиптическая среда - это не только место физических, но и психологических, и философских испытаний. Так, в романе понятия нигилизма (Ф. Ницше) и абсурда (А. Камю) связаны с основной идеей произведения. Эти философские подходы помогают глубже понять апокалиптический мир Дж. Малермана и выводят роман на новый этап эволюции жанра.
**Ключевые слова:** Апокалипсис, экзистенциализм, абсурд, страх, Ф. Ницше, А. Камю.

## 1. Giriş

XX əsrdə Qərbi Avropa ölkələri eləcə də ABŞ ənənəvi aqrar modeldən sənaye modelinə sürətli keçidlə səciyyələnən yeni inkişaf mərhələsinə qədəm qoydu. Sənaye inqilabı, fabrik və bir çox müəssisələrin yerləşdiyi şəhərlərin aktiv böyüməsinə səbəb oldu. Xüsusi ilə ABŞ-da sənaye inqilabının ikinci dalğasının təsiri altında çox mühüm sosial, iqtisadi, mədəni

dəyişikliklərin yaşandığı bir dövr aqrar modeldən urbanizasiyaya əsaslanan sənaye modelinə keçidlə xarakterizə olundu. Texnologiyanın insan əməyi üzrəindəki üstünlüyü, maşınların insanı əvəz etməsi, sürətli urbanizasiya, şəhərlərin deqradasiyasına gətirib çıxartdı. Kənd yerlərindən gələn gənc nəsil çox vaxt öz istəkləri ilə deyil, iqtisadi şəraitə və sosial rifahın artmasına ümid bəsləyərək kütləvi şəkildə şəhərlərə köçürdülər. Adi həyat tərzindəki bu qəfil dəyişikliklər bir çoxlarında "itmiş" və yad hisslər doğurmuşdu. Doğma yurddan, ailə dəyərlərindən uzaq düşmək, yeni mühitə qərq olmaq ekzistensial gərginlik ilə müşayiət olunurdu. Bu transformasiya təkcə iqtisadiyyat və texnologiyanı deyil, eyni zamanda insanların dünyagörüşünü, həyat tərzini, gələcək haqda təsəvvürlərini də köklü şəkildə dəyişdi.

Elmi və texnoloji inkişafa inam, ABŞ-da xüsusi ilə fərdi təşəbbüs və zəhmətlə uğur qazanmaq - "Amerikan arzusu" ideyasını populyarlaşdırdı, sənayeləşmə və kapitalizmin yüksəlişi isə bu düşüncəni gücləndirdi. Pozitivizm, sosial darvinizm kimi fəlsəfi nəzəriyyələr insanların iqtisadi və bundan irəli gələn mənəvi dəyişiklikləri qəbul etməsinə səbəb oldu. Lakin bu iqtisadi irəliləyiş texnoloji dehumanizasiya, dünyanın məhvi kimi fikirlərdən yaranan narahatlıqları artırmağa başladı. Müharibənin və yeni nəsil silahların tətbiqi bəşəriyyət üçün təhlükə anlayışını qaçılmaz edirdi. XX əsrin əvvələrində, xüsusi ilə I Dünya müharibəsindən sonra texnoinkişaf öz dağıdıcı gücünü daha açıq şəkildə hiss etdirirdi. II Dünya müharibəsi dövründə isə apokaliptik düşüncənin sürətlə yüksəlişinə təkan verən amilləri "soyuq müharibə"lər, Şərqlə Qərbin süni fəlakətlər vəd edən qarşıdurmaları qaçılmaz reallıq kimi göz altına alınmışdı. Bütün bəşəriyyət sivilizasiyanın sonu, yer kürəsinin məhv olması barədə fikirlərin həqiqi zamanda reallaşacağının mümkün olduğunu dərk edirdilər. Adi hal almış irimiqyaslı süni yaradılmış fəlakətlər nəticəsində insan mənəvi böhran xəttinə çox tez çata bildi. Dünyanın sonu haqqında biliklər artdıqca, insanlar yox olmağın mümkün variantlarını icad etməyə başladılar. Dünyanın məhvi, apokalipsis anlayışı artıq öz ilkin mifik-məcazi mənasını itirərək, texnogen inkişafın doğurduğu şübhə və qorxunun ifadəsinə çevrildi. Canlı aləmin bioloji, fizioloji xüsusiyyətlərinin dəyişməsi ilə insanın sosial, mədəni mahiyyətinin dəyişəcəyi, yeni texnoloji icadların hökm edəcəyi kimi qəti iddialar getdikcə özünü doğrultmağa başladı. Bu iddiaların yalnız müəyyən fərdlərin taleyini deyil, bütövlükdə mədəniyyətlərin, sivilizasiyaların yönümünü müəyyənləşdirməyə qadir olduğu ideyası aktuallaşmağa başladı.

Dünyanın sonu, qlobal fəlakət, apokalipsis və ya insanlığın məhvi ideyaları haqqında müxtəlif filosoflar fərqli nəzəriyyələr irəli sürməyə başladılar. Bu nəzəriyyələr texno-ekoloji, dini eləcə də siyasi aspektlərdən izah olunurdu. Apokaliptik düşüncələri daha çox mədəni və mənəvi çərçivədə izah edən F. Ntsşe, "Tanrının ölümü" ideyasını irəli sürərək, ənənəvi dəyərlərin çökdüyünü və bunun nəticəsində cəmiyyətin apokaliptik xaotikliyə, nihilizmə sürüklənəcəyini, istiqamətsiz və qorxunc bir boşluğa düşəcəyini bildirirdi: "Biz süqut içində olan dünyanın içində yaşayırıq. Yeni bir şey yaratmağa gücümüz çatmasa, hər şeyin çöküşü qaçılmaz olacaq" [5, s.81]. F. Nitsşe, gələcək Avropa sivilizasiyanın məhvi, insanlığın yaradıcı

iradəsini itirəcəyini təsvir edir. Filosof, tarixin dövrü xarakter daşıdığını və Qərb mədəniyyətinin də öz apokaliptik sonuna yaxınlaşdığını hesab edirdi. XX əsrdə nüvə müharibələri, yadplanetlilər və onların yer kürəsini "işğalı" ehtimalı, epidemiyalar, təbii fəlakətlər və ya ali güclərin münaqişəsinin əks olunduğu süjetlər, zahirən səhnəcik təsiri bağışlasa da, müasir dövrdə texnogen və süni intellektin yaranması "təhlükəli gələcək" fikrini ortya qoydu. Daimi mövcudluq, əbədiyyət elmin inkişafıyla mümkündür. Alimlərin ancaq "elm bəşəriyyəti xoşbəxt edə bilər", iddiası, atom, hidrogen bombası ilə müqayisə olunan texniki silahların icad olunduğu texnogen dövrdə öz dəyərini zəiflətdi. Tarixdə belə məqamları qırılma nöqtəsi kimi qiymətləndirən Karl Yaspers, "apokaliptik çağ" anlayışını müzakirəyə çıxartdı [6, s.55]. Fəlsəfi kontekstdə meydana çıxan bu anlayış dini mətnlərdən, tarixi böhran və texnoloji dəyişikliklərdən təsirlənərək mistik və fəlsəfi (romantizimdə), müasir dövrdə isə daha realist və sosial-siyasi aspektlərdə təhlil olunaraq bədii ədəbiyyata gəldi. Bəşəriyyətin məhvi haqqında fikirlərin bir-birinin ardınca xaotik nizamsızlıqla təqdim olunması, elmi-fantastik ədəbiyyatda apokalipsis janrının inkişafına təsir etdi.

## 2. "Apokaliptik dünya" təsəvvürünün bədii-estetik fikirdə inikası xüsusiyyətləri

Apokaliptik ədəbiyyat, ədəbi janr kimi səmavi prinsiplərin və ya müqəddəslərin kəlamlarında göstərildiyi kimi, "dünyanın sonu" təsəvvürlərinin, gələcəkdə baş verə biləcək hadisələrin təfərrüatlarını ortaya qoyur. İudaizm və xristianlıqda təşəkkül tapmış apokaliptik ədəbiyyat, Babil əfsanələrindən başlayaraq əhəmiyyətli bir dövrü əhatə edir. Dünyanın qaranlığa qərq olduğu, günəşin söndüyü, insanların bir-birini məhv etdiyi apokaliptik dünya mənzərələri C. Bayronun ("Qaranlıq", Darkness 1816), bəşəriyyətin vəba epidemiyası nəticəsində tədricən yox olması motivləri M. Şellinin ("Son adam", The Last Man 1826) əsərlərində daha simvolik və fəlsəfi şəkildə təsvir olunmağa başladı. Bədii nümunələrdə apokalipsis təkcə dini məhv kimi deyil, həm də mədəniyyətin süqutu, insanlığın böhranı və gələcəklə bağlı pessimist baxışlar şəklində ifadə olunurdu.

XX əsrdən etibarən isə Dünya müharibələri, nüvə təhlükəsi, texnologiyanın inkişafı, süni intellekt apokaliptik ədəbiyyatın aparıcı ideya-mövzusuna çevrildi. C. Oruellin "1984" (1984, 1949), O. Hakslinin "Cəsur yeni dünya" (Brave New World, 1932), R. Bredberinin "Farenheyt 451" (Farenheit 451, 1953) kimi bədii nümunələrdə totalitar cəmiyyətin apokaliptik mənzərəsini, texnologiyanın insan ruhunu yox etməsini, mədəniyyətin və biliklərin məhv edildiyi bir dünyanın təsvirləri yaradılmışdı. Fəlakət süjetləri ilə zəngin elmi-fantastika, utopiya və antiutopiya kimi janrlar, müasir romanın futuroloji aspektdə yenilənməsinə gətirib-çıxartdı. R. Metisonun "Mən əfsanəyəm" (I am Legend),,Y. Zamyatinin "Biz" (We, 1920), Struqatski qardaşlarının "Piknik zonası" (Roadside Picnic, 1972) romanları, antiutopiyanın, ümumən bədii ədəbiyyatda apokalipsis silsiləsinin klassik nümunələri hesab edilirdi. Bəşəriyyətin məhvindən sonra dünyanın yenidən qurulması (U. Miller - "Leybovitz üçün elegiya", A Canticle for Leibowitz, 1960), nüvə müharibələrindən sonra sağ qalanların sonrakı həyatı (N. Şut - "Son sahil", On the Beach, 1957) kimi mövzular apokalipsisdən sonrakı dövr - postapokaliptik reallığı canlandırırdı. Müasir dövrdə apokalipsis iqlim dəyişikliyi, texnoloji və fəlsəfi

problemlər, təbii fəlakətlər, zombi-məxluqlar, sağ qalmaq mübarizəsi və həyatı yenidən mənalandırmaq cəhdi isə postapokalipsis kontekstində ədəbiyyata daxil olur. Dünyanın sonu, qorxu, vahimə, əzablı ölüm, dəhşət, ümidsizlik bu janrda yazılmış bir çox bədii süjetlərin əsasını təşkil etdi.

Apokalipsis obrazı, ümumilikdə müasir bədii şüurun strukturu kimi mövcud olmaqda davam edir. Buna səbəb, bu obrazın zaman və tarix kimi əsas semiotik konstruksiyalara sıx bağlı olmasıdır. J. Bodriyar qeyd edirdi ki, postmodern reallıq mifologiyanın ən yüksək səviyyəsi ilə xarakterizə olunur. “Dünyanın sonu” mövzusu zamanla mifoloji-dini maska mahiyyətini zəiflətsə belə, yenə aktuallığını qoruyub-saxlaya bilmişdir. O, belə hesab edirdi ki, mədəni kontekstdə müasir sivilizasiya öz inkişaf həddinə çatıb, dünyanın sonu artıq baş verib. Əsl sənəti “həqiqi olana bənzəməyən, lakin oxşarlıq effekti yaradan bir obyektlər - simulyakrlar” əvəz edir [1, s.6]. Müasir incəsənət reallıqla heç bir əlaqəsi olmayan virtual reallığa qarışmışdır. Filosof hesab edir ki, təkcə müasir incəsənəti deyil, həm də bütün müasir reallığı simulyakr adlandırmaq olar. Belə bir hiperreal dünyada insanlar davamlı olaraq “səssiz kütləyə çevrilirlər” [3]. Bu, paradoksdur, amma kütlənin içinə sığınan cəmiyyət sosiallığa yaddır, çünki kütlə ilkin olaraq asosialdır, primitivliyi, yeknəsəkliyi, marjinal dillərin bolluğu, sistemli dəyərlərin məhv edilməsi ilə seçilir. Hiperreal konformizm, həddindən artıq passivlik ilə xarakterizə olunan kütlə susqunluğu və laqeydliyi zəmanəmizin əsas problemidir, bu da gec-tez qaçılmaz olaraq qiyamətə aparır [1, s.52]. İnsan təbiəti üçün öz ölümündən daha iyrənc, daha qorxulu ola biləcək bir şeyi təsəvvür etmək çətindir. Azad postmodern insan, zaman və reallıqla əlaqəsini itirib, yəni müxtəlif elementlərdən ibarət “başqası” rolunu oynayan yeni simulyakrını yaradır, çıxış yolu kimi bir zaman kontinumundan (apokalipsisdən) uğurla çıxıb, digər bir zaman (postapokalipsis) vəziyyətinə keçməyi tərcih edir. Postmodern mətn bu elementi reallaşdırmaq üçün ənənəvi süjetləri dəyişdirir, yenilənmiş fraqmentlərlə zəngin tarixi kontentə - postapokalipsisə keçid edir. Bu halda postapokalipis, tarixi yenidən yazmaq, hər şeyi yenidən başlamaq cəhdi kimi yozulur.

Yaşamaq uğrunda mübarizə və bu mübarizədən “qalib çıxmış”larla, məhv olmuş dünyanı yenidən bərpa etmək kimi postapokaliptik süjetlər, bədii ədəbiyyatda kütləvi kult halini alır. Kormak Makkartinin “Yol” (The Road, 2006) romanının qəhrəmanı tamamilə məhv olmuş bir dünya ilə qarşılaşır, lakin o, bu dünyada qalmağın mənasını axtarır. Tənhalıq, sadəcə tək qalmaq deyil, həyatı yenidən dəyərləndirmək üçün tələb edilən ekzistensial vəziyyətdir. İnsan düşmən mühitlə tək qalır. Bu vəziyyət fərdi təkcə sosial təminatlardan deyil, həm də individ olmaqdan məhrum edir. Postapokalipsis, ekzistensial kontekstdə - insan varlığının fundamental tərəflərini üzə çıxaran vəziyyət kimi nəzərdən keçirməyə imkan verir. Belə şəraitdə insan həyatı və mədəniyyətin davamlılığı, kritik faktorların, yeni sosial modellərin - cəmiyyətə adaptasiya mexanizmlərinin qarşılıqlı təsiri və onların davamlılığı məsələsindən asılıdır.

### 3. "Apokaliptik dünya" Coş Malermanın yaradıcılığında absurd reallıq kimi

ABŞ ədəbiyyatında apokalipsis eləcə də ondan sonrakı dövr (postapokalipsis), həm konsepsiya, həm də kainatın mənəvi deqradasiyası, ekzistensial problemlərin inikasının göstəricisi kimi, mühüm əhəmiyyət kəsb edir. Ekzistensializm XX əsrdə, müharibələr və böhranların təsiri ilə inkişaf edən fəlsəfi cərəyən kimi, insanın absurd dünyada mövcudluğunu, azadlığını və məsulliyətini vurğulayır. Əsərlərində bu mövzuları fərqli baxımdan əks etdirən amerikalı yazıçılar, sosial, ictimai, texnoinkişafın pik həddini yaşayan cəmiyyətlərdə dünyanın məhv olma qorxularını və bu qorxunun nəticəsi olaraq mənəvi boşluq problemlərini işıqlandırmağa çalışır. Bunun kökündə bəzi sosial hadisələrlə yanaşı, mənəvi dəyərlərin də durduğunu iddia edən müəlliflər problemə bu kontekstdən yanaşmağı məqsədəuyğun hesab edirlər. Absurd dünya və fərdi mənanın yaradılması, tarixi təkrarlanma və insanlığın dəyişməz təbiəti kimi ekzistensial mövzular, Amerikalı yazıçı Coş Malerman əsərlərində apokaliptik qorxu ilə birləşərək insanın qeyri-müəyyənlik qarşısında keçirdiyi daxili gərginliyi və mənəvi seçimləri ön plana çıxarır. Yazıçının yaradıcılığında məhv olma konsepsiyası qorxulu bir mənzərəni təcəssüm etdirir. Qorxu və fantastika ustası kimi C. Malerman apokalipsis mövzusunda yazdığı əsərləri ilə dünya ədəbiyyatına xeyli töhfələr vermiş, sosial əhəmiyyətli məsələlərə toxunmaqda Riçard Matison, Kormak Makkarti, Stiven Kinq, H.P. Lavkraft kimi tanınmış yazıçılarla ortaq fikirləri bölüşmüşdür. Münaqişələrin mənəvi dəyərlər kontekstində, fantastika və reallıq ənənələri ilə genetik olaraq əlaqələndirən yazıçı, son illərdə yazdığı romanlarında "Qəfəs" (Bird Box, 2014), "Malore" (Melorie, 2020) müxtəlif baxış bucağı əks etdirməklə, dəhşətli həyat hekayələrini, mənəvi böhran keçirən dünyanı "sənət əsəri" kimi təqdim edir. Hal-hazırda Amerikada populyarlıq qazanmış ən çox oxunan yazıçı hesab olunan Coş Malermanım ədəbi fəaliyyətini fərqləndirən xüsusiyyətlər arasında qotik ənənələri və fantaziya imkanlarını göstərmək olar. O, klassik qorxu elementlərini müasir psixoloji gərginliklə birləşdirən üslubu ilə tanınır. Mürəkkəb süjetləri və aydın dili ilə oxucuları yormayan yazıçı, qeyri-real hadisələri gerçəkliyin öz formalarında "əks etdirərək", bir sıra konkret həyat hadisələrini, mücərrəd kontekstdə oxucuya təqdim edir. C. Malerman cəmiyyəti gələcəkdə dəhşətli nəticələrə səbəb ola biləcək mövcud problemlər barədə xəbərdar etməyin ən yaxşı yolunu bədii yaradıcılıqda görür. Onun əsərləri fəlakətdən sonrakı dünya, hərəkətlərlə dolu hekayələr üçün yaradılmış uyğun mühit, eləcə də ekstremal şəraitdə insan psixikasının öyrənilməsi üçün spekulyativ təcrübə kimi dəyərləndirənlər də az deyil. Müasir insanı əylənməyə, eyni zamanda da mövcud problemlərdən qaçmamağa çağıran yazıçı, təhlükə və insan psixologiyasının parçalanması problemlərinin təsvirində yeni tendensiyaların ifadəçisi hesab olunur. C. Malermanın bu romanı yalnız klassik apokaliptik qorxu deyil, həm də ekzistensializm və absurdizm elementlərini özündə cəmləşdirən əsərdir: "İnsan, ən qorxaq məxluqdur. Məsələ qorxmaqda deyil, məsələ onunla yaşamağı öyrənməkdədir" [4, s.188].

Romanın əsas süjeti naməlum varlıqların dünyanı zəbt etməsi və onlara baxan insanların özlərini öldürməsi ətrafında qurulub. Bu vəziyyət insanları həddindən artıq məhdudiyyətlərə və qorxu içində yaşamağa məcbur edir. Dünya artıq rasional şəkildə dərk edilə bilməz, çünki fundamental instinktlərin, epistemoloji sistemlərin çökməsi (nihilizm) insanı qeyri-müəyyənlik

və xaos içində sağ qalmaq üçün yeni, bəzən isə irrasional davranış modelləri yaratmağa məcbur edir. Albert Kamünün fikrinə görə, insan həmişə dünyada məna axtarır, lakin dünya ona bu mənanı vermək iqtidarında deyil. "Qəfəs" romanında da bu prinsip - qəhrəmanların yaşadığı absurd dünyada məna axtarmaq cəhdi məntiqsiz görünür. "Səmanı heç vaxt görməyən, ora yüksəlməyin yollarını da bilməz" [4, s.218]. İnsanlar həyatda sağ qalmaq üçün gözlərini açmamalıdırlar, yəni reallığı tam qavramaq imkanlarından məhrumdurlar. Düşmən tamamilə qeyri-müəyyəndir, varlıqlar görünməzdir, onlar nə danışır, nə də birbaşa müdaxilə edirlər. Onların nə vaxt nə edəcəkləri bəlli deyil, bu da ekzistensial qorxunu gücləndirir. Dağılmış cəmiyyətdə sağ qalanlar mənasız və xaotik bir mühitdə varlıqlarını davam etdirmək üçün məntiqsiz qaydalar icad edirlər. Həyatın nəzarətdən çıxması, təsadüfilik, xaos, əsərin əsas atmosferini formalaşdırır. Baş qəhrəman Melori, A. Kamünün absurd insan anlayışına uyğun gəlir. O, yaşadığı dünyanın məntiqsizliyini qəbul edir və ona qarşı üsyan etmir, sadəcə öz həyatına məna qatmağa çalışır. "...sən yaşamağın mümkün olmadığı bu dünya üçün böyüdürsən bu uşaqları?" [4, s.4]. Melori bu absurd dünyada övladlarına ad verməyi belə uyğun bilmir. Onlara sadəcə "oğlan" və "qız" deyə müraciət etməsi, insanın apokaliptik şəraitdə fərdi kimliyini də itirməsinə işarə edir. Hamının məhv olduğu məkanda sağ qalmaq üçün mübarizə aparır, eyni zamanda qorxu və inamsızlıq içində övladları üçün yaşamaq məcburiyyətindədir. Bu kontekstdə Melorini, A. Kamünün "Sizif haqqında mif" əsərindəki Siziflə müqayisə etmək olar. O, absurd dünyada yaşamaq üçün mənasını özü yaratmalıdır. Roman həm də insanlığın dəyişməz təbiəti və tarixin təkrarlanması ilə bağlı ekzistensial suallar yaradır. İnsan həmişə qorxu içində yaşamalıdırmı? Müxtəlif pandemiyalar və sosial kataklizmlər insanları məcburi olaraq qapalı mühitdə yaşamağa məcbur edib. "Qəfəs" isə insanın öz dünyasını məhdudlaşdıraraq yaşamaq məcburiyyətində qalmasının yeni bir modelini təqdim edir. Bu, klassik postapokaliptik ədəbiyyatdakı "güclülər sağ qalır" prinsipindən fərqlənir. Burada güc fiziki deyil, psixoloji uyğunlaşma və idrakın dəyişməsi ilə müəyyən edilir.

Coş Malermanın "dəhşət" elementlərini ekzistensializmlə birləşdirərək insanın absurd dünyada yaşamaq üçün fərdi məna axtarışı prosesini, ölümə güc gələrək sağ qalma mübarizəsini təsvir edir. Roman, tarixin təkrarlanan qorxu ssenarilərini və insanın əzəli təbiətini ön plana çıxararaq, təkcə qorxu janrının deyil, həm də ekzistensial fəlsəfənin bir nümunəsinə çevrilir.

**Nəticə.** Gördüyümüz kimi, Malermanın bədii təxəyyülündə, apokalipsisdən sonrakı dönəmi yaşayan, qorxu və dəhşətdən yığcamlaşmış, həqiqi simasını itirmiş absurd dünya modeli mövcuddur. Həmin dünya ki, orda insan qalib gələ bilmir. Lakin buna baxmayaraq, pisliyə, zülmə, mücərrəd şərə, qara qüvvələrə qarşı mübarizəsini davam etdirir. Naməlum təhlükə qarşısında ənənəvi bilik və dəyərlər etibarsız hala gəlir, insanın gerçəkliklə əlaqəsi qırılır, bu da yeni psixoloji və ekzistensial adaptasiya mexanizmlərinin formalaşmasına səbəb olur. Coş Malerman göstərir ki, apokaliptik xaosda eləcə də bu vəziyyətə adaptasiya olmuş insanın ən böyük mübarizəsi təkcə xarici təhlükəylə fiziki mübarizə deyil, həm də psixoloji

cəhətdən sağlam, yetkin, yaradıcı və məsuliyyətli fərdlərdən ibarət cəmiyyətin utopik modelini yaratmaq cəhdidir. Bu cəhd insanın daxili təmizlənmə, tərbiyə və inkişaf prosesini təmsil edir.

**Ədəbiyyat**


1. Baudrillard J. (1983), In the Shadow of the Silent Majorities. New York, Columbia University.
2. Baudrillard J. (1988), *Simulacra and Simulations, Selected Writings*. Stanford: Stanford University Press, 166-184.
3. https://ceasefiremagazine.co.uk/in-theory-baudrillard-12/
4. Malerman J. (2014), Bird Box. US, Ecco, 273.
5. Nitsşe F. (2020), Antixrist. Tərcüməçi: Yaşar Əsədov, Bakı: Qanun nəşriyyatı, 176.
6. Yaspers K. (1976), The Origin and Goal of History. Greenwood Press, 294.